2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində
25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəngan bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağayev Qadir Hacıağa oğlu 25 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin 26 saylı seçki məntəqəsində səsvermənin düzgün keçirilmədiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, müraciətin araşdırılmasına xitam verilməsi dair rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Ərizəçi Q.H.Ağayev 30 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına yazılı ərizə ilə müraciət edərək həmin şikayətindən imtina etdiyini bildirmişdir. Buna görə də 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **q ə r a r a a l ı r :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəngan bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağayev Qadir Hacıağa oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 23 saylı müraciətinin araşdırılmasına xitam verilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov